# Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş klassik musiqi gecəsi





Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Dövlət Akademik Filarmoniyasında klassik musiqi gecəsi keçirilib.

Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, bir sıra dövlət qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, paytaxt ictimaiyyətinin nümayəndələri, ali və orta təhsil müəssisələrinin, veteran və gənclər təşkilatının nümayəndələri, elm və mədəniyyət xadimləri və çoxsaylı qonaqlar iştirak ediblər.

Qeyd olunub ki, Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdə onun təşəbbüsü ilə mədəniyyətin bir çox sahələrinə, o cümlədən klassik və simfonik musiqiyə insanların marağının və bu sahədə biliklərinin artırılması, bu musiqini geniş tamaşaçı kütləsinə sevdirmək məqsədi ilə Dövlət Filarmoniyasında respublikanın dövlət xadimləri, xalq təsərrüfatının bütün sahələrinin rəhbər işçilərinin, elm və mədəniyyət xadimlərinin, partiya, həmkarlar ittifaqları və komsomol sahələrində çalışanların, bir sözlə, ovaxtkı siyasi elitanın iştirakı ilə klassik musiqi gecələri təşkil olunurdu. Dünya və Azərbaycan bəstəkarlarının simfonik və klassik əsərləri səslənən bu gecələrdə Ulu Öndər hər zaman özü, çox vaxt isə ailə üzvləri ilə birlikdə iştirak edirdi.

Ulu Öndərin 100 illik yubileyi ərəfəsində onun əziz xatirəsinə bir ehtiram olaraq, həm də ötən əsrin 70-ci illərindəki klassik musiqi gecələrini xatirələrdə əks etdirən və Ulu Öndər Heydər Əliyevin ən çox sevdiyi klassik əsərlərin yer aldığı proqram təşkil olunub. Bu klassik musiqi gecəsi, həmçinin Ulu Öndərin əziz xatirəsinə ehtiramın musiqi dilində ifadəsi olub.

İlk olaraq Mustafa Mehmandarovun dirijoru olduğu Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" ifa edib.

Daha sonra orkestrin və Xalq artisti Gülbacı İmanovanın rəhbəri olduğu Azərbaycan Dövlət Xor Kapellasının müşayiətləri ilə dünyaşöhrətli Azərbaycan bəstəkarları Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Müslüm Maqomayev, Cahangir Cahangirov, Arif Məlikov, Niyazi, Vasif Adıgözəlov, Kamal, Sevil Əliyeva, Ruslan Zeynalov və başqalarının ölməz əsərləri və xalq mahnıları Xalq artistləri Fidan Hacıyeva, Azər Zeynalov, Əməkdar artistlər Ramil Qasımov, İlham Nəzərov, Anar Şuşalı, Ceyla Seyidova, Xəyyam Mustafazadə, Afaq Abbasova, Sahib Paşazadə və tanınmış ifaçı Amil Həsənoğlu tərəfindən səsləndirilib.

Tamaşaçılara unudulmaz anlar bəxş edən konsert çox təsirli və yaddaqalan keçib və alqışlarla qarşılanıb.

Azərbaycan.- 2023.-7 may.- S.6.